

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

# ŞƏRQ qapısı

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 113 (23.024)

*15 iyun 2018-ci il, cümə*

*Gündəlik ictimai-siyasi qəzet*

www.serqqapisi.az

Qiyməti 20 qəpik


*Rəsmi xronika*

İyunun 14-də Moskvadakı "Lujniki" stadionunda futbol üzrə növbəti dünya çempionatının təntənəli açılış mərasimi keçirilib.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyeva mərasimdə iştirak ediblər.

Qeyd edək ki, iyirmiyə yaxın ölkənin dövlət və hökumət başçılarının da qatıldığı açılış mərasiminin proqramı zənginliyi və əvvəlki dünya çempionatlarının açılış mərasimlərinin proqramlarından fərqli formatı ilə əsaslı şəkildə seçilib. Budəfəki tədbir daha qısa vaxt ərzində və yığcam olub, məşq ərəfəsində deyil, birbaşa Rusiya-Səudiyyə Ərəbistanı matçından əvvəl keçirilib.

Açılış mərasimindən dərhal sonra "A" qrupunda mübarizə aparan Rusiya və Səudiyyə Ərəbistanının yığma komandalarının görüşü başlayıb.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və qızları Leyla Əliyevanın da baxdıqları qarşılaşmada Rusiya yığma komandası 5:0 hesabı ilə qalib gəlib. Qolları futbolçular Yuri Qazinski, Dmitri Çerışev, Artyom Dzyuba və Aleksandr Qolovin vurublar.



## Naxçıvanda Milli Qurtuluş Günü qeyd olunub



1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə yenidən siyasi hakimiyyətə qayıdan ulu öndər Heydər Əliyev Azərbaycanı üzləşdiyi bəlalardan xilas etmiş, müstəqilliyimizi qoruyub saxlamış, sabitlik və sürətli sosial-iqtisadi inkişafın əsasını qoymuşdur. Bu gün müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ulu öndər Heydər Əliyevin yolu ilə inamla irəliləyir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə sosial, iqtisadi, siyasi, mədəni həyatın bütün sahələrində uğurlar qazanılır.

İyunun 14-də Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında 15 İyun – Milli Qurtuluş Günü münasibətilə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin, Məmməd Səid Ordubadinin "Qılınc və qələm" tarixi dram əsəri əsasında hazırlanmış tamaşanın təqdimatı olmuşdur.





Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov tədbirdə iştirak etmişdir.

Əvvəlcə Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının təltiflərinin təqdimatı keçirilmişdir.

Qeyd olunmuşdur ki, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 21 fevral, 9 mart, 16 mart, 26 mart, 4 may, 18 may, 22 may, 24 may və 31 may tarixli sərəncamları ilə muxtar respublikada 15 nəfər "Tərəqqi", 2 nəfər "Vətən uğrunda", 4 nəfər "Hərbi xidmətlərə görə", 1 nəfər "Dövlət qulluğunda fərqlənməyə görə", 2 nəfər isə "Miqrasiya orqanlarında qulluqda fərqlənməyə görə" medalları ilə təltif olunmuş, 2 nəfərə Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı verilmişdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 5 may tarixli Sərəncamı ilə isə 1 nəfər Naxçıvan Muxtar Respublikasının "Əməkdar dövlət qulluqçusu" fəxri adı ilə təltif olunmuşdur.

Ali Məclisin Sədri təltiflərin vəsiqə və döş nişanlarını təqdim etmişdir.

Azərbaycan Respublikasının "Əməkdar mədəniyyət işçisi" fəxri adı ilə təltif olunan Akif Hacıyev minnətdarlıq edərək demişdir: Müstəqil Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası ilə qürur duyuruq. Gözlərimizin önündə 20 il bundan əvvəlki Naxçıvanı canlandırarkən Milli Qurtuluşun, ulu öndər Heydər Əliyev siyasi xəttinin bəhrəsini daha aydın görürük. Naxçıvan tarixdə iki dəfə müqəddəsləşib: birinci dəfə Nuh Peyğəmbər bu torpağa ayaq basarkən, ikinci dəfə isə ulu öndərimiz Heydər Əliyev 1990-cı ildə Naxçıvana gələrək buradan ölkəmizin xilasına başlayarkən. Ümummilli liderimiz Naxçıvanı qorudu, bu qədim diyarda başladığı tədbirlər nəticəsində xalqımızı həqiqi müstəqilliyə qovuşdurdu. Bu siyasətin davamı ölkəmizi və doğma Naxçıvanımızı daha uca zirvələrə qaldırır. Muxtar respublikada aparılan geniş quruculuq işləri bütün sahələri və yaşayış məntəqələrini əhatə edib. Yeni səhiyyə, təhsil, mədəniyyət müəssisələri, rahat və müasir yollar, istehsal sahələri tikilib istifadəyə verilir, hər bir sakinə qayğı göstərilir. Qeyd olunanlar yaşadığım Nehrəm kəndinin timsalında da özünü göstərir. Yaradılan şərait, xüsusilə Nehrəmdə Heydər Parkının istifadəyə verilməsi sakinlər tərəfindən minnətdarlıqla qarşılanır. Biz ulu öndər Heydər Əliyev siyasətinə sadiq və vətənpərvər gənclər böyüdürük. Qarşımızda bir məqsəd var: o da əldə olunan inkişafa öz töhfəmizi vermək, muxtar respublika rəhbərinin etimadını layiqincə doğrultmaqdır.

Naxçıvan Muxtar Respublikasının "Əməkdar dövlət qulluqçusu" fəxri adı ilə təltif olunan Ülkər Bayramova minnətdarlıq edərək demişdir ki, göstərilən bu etimad kollektivimizin əməyinə verilən yüksək qiymətdir. Bu, məsuliyyətimizi daha da artırır. Ulu öndərimiz Heydər Əliyev deyirdi ki, ***"İnsan hüquqları bəşəriyyətin ən ali dəyəridir"***. Dahi rəhbərin bu sahədə müəyyənləşdirdiyi siyasət muxtar respublikada uğurla reallaşdırılır. İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) fəaliyyəti üçün hər cür şərait yaradılıb. İnsan hüquq və azadlıqlarının qorunması istiqamətində ardıcıl tədbirlər görülür. İnsan Hüquqları üzrə Müvəkkilin (Ombudsman) kollektivi bundan sonra da qarşıya qoyulan vəzifələrin icrasına səylə çalışacaqdır.

Sonra "Qılınc və qələm" tarixi dramı əsasında hazırlanmış tamaşaya baxış olmuşdur.

Məmməd Səid Ordubadi ədəbiyyat tariximizin görkəmli simalarından biridir. O, bütün yaradıcılığı boyu xalqımızın keçmişini, qəhrəmanlıq səhifələrini, inkişaf və azadlıq mübarizələrini ardıcıl olaraq tədqiq və təsvir etmiş, romanlar yazmışdır. Dövlətçilik tariximizdən bəhs edən "Qılınc və qələm" romanı da Naxçıvan Dövlət Musiqili Dram Teatrında ilk dəfə səhnələşdirilmişdir.

Tarixi faktlarla bədii təxəyyülün ustalıqla əlaqələndirildiyi tamaşada ölkənin xarici əlaqələri, dövrün ədəbiyyat və incəsənəti, sənətkarları, dövlət xadimləri, xalqın azadlıq mübarizəsi əks olunmuşdur. Zəngin obrazlar yaradılmış tamaşada Azərbaycanın dövlətçilik tarixinin ən böyük səhifələrindən biri – Atabəylər dövrünün hərtərəfli mənzərəsi əks olunmuşdur. Dahi Azərbaycan şairi Nizami Gəncəvinin yaşadığı dövr, Azərbaycanın XII əsrdə işğalçılara qarşı mübarizəsi, xalq azadlıq hərəkatı ustalıqla səhnələşdirilmişdir. Tamaşada iki qəhrəmana daha geniş yer verilmişdir. Bunlardan biri dahi şairimiz Nizami, digəri isə Fəxrəddindir. Nizami xalq qəhrəmanı Fəxrəddinin müdrik məsləhətçisidir. Səhnə əsərində Nizami qələm, Fəxrəddin isə qılınc simvolu kimi rəmzləşdirilmişdir.

Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidovun quruluş verdiyi tamaşada aktyorlardan Nəsimi Məmmədzadə, Səyyad Məmmədov, Nazlı Hüseynquliyeva, Nurbəniz Niftəliyeva, Azərbaycan Respublikasının xalq artistləri Həsən Ağasoy, Rövşən Hüseynov, Azərbaycan Respublikasının Əməkdar artistləri Bəhruz Haqverdiyev, Əbülfəz İmanov və digərləri uğurlu səhnə həllinə nail olmuşlar.

Tamaşadan sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov səhnə arxasına keçərək yaradıcı heyətlə görüşmüşdür.

Ali Məclisin Sədri uğurlu tamaşaya görə kollektivə təşəkkürünü bildirərək demişdir: Azərbaycan ərazisində tarixən mövcud olan dövlətlər həm də dövlətçilik tariximizlə bağlı əsərlərin yaranmasına səbəb olmuşdur. Naxçıvan teatrında dövlətçilik tariximizlə bağlı yazılmış əsərlər – Nəriman Həsənzadənin "Atabəylər", Nəriman Nərimanovun "Nadir şah", Həmid Arzulunun "Əlincə qalası" əsərləri tamaşaya qoyulmuşdur. Bu gün isə Məmməd Səid Ordubadinin "Qılınc və qələm" romanı Naxçıvan teatrında

*Ardı 2-ci səhifədə*

ustalıqla səhnələşdirilmişdir.

Ali Məclisin Sədri demişdir: Dövlətçiliklə bağlı səhnə əsərlərinin yaradılması istedad tələb edir. Bunun üçün gərək böyük yazıçı, dramaturq olasan, öz ölkənin, xalqının tarixini və əsərin əhatə etdiyi dövrü yaxşı biləsən. “Qılınc və qələm” tamaşasında aktyor seçimindən tutmuş səhnə tərtibatına qədər bütün işlər ustalıqla görülmüşdür. Hər tamaşada bir obraz daha çox diqqəti cəlb edir. Bu tamaşada da Qətibə xatın obrazı mükəmməl yaradılmışdır. Bu cür obrazların yaradılması üçün gərək aktyorda istedad olsun. Tamaşada hər bir aktyorun istedadı görünürdü. Zəhmət çəkiləndə istənilən uğura nail olmaq mümkündür. Ancaq çəkilən zəhmətə, o tamaşaya, o rola ürəklə bağlananda isə həmin obraz təkcə oynanılmır, həm də yaradılır və yaşadılır. “Qılınc və qələm” tamaşasında da obrazları yaradan hər bir aktyor həm də öz vətəndaş sevgisini ortaya qoymuşdu.

Ali Məclisin Sədri kollektivi təbrik etmiş, onlara yeni yaradıcılıq uğurları arzulamışdır.

Tamaşanın rejissoru, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov əməklərinə verilən yüksək qiymətə və Naxçıvan teatrının fəaliyyəti üçün yaradılan şəraitə görə kollektiv adından Ali Məclisin Sədrinə minnətdarlıq etmişdir.

Sonda xatirə şəkli çəkdirilmişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

# Qurtuluşdan başlanan yol

***Ulu öndərimiz Heydər Əliyevin adı bu gün Azərbaycan dövlətinin rəmzi kimi səslənir. Azərbaycan xalqı öz böyük oğlu Heydər Əliyevi yalnız siyasi lider kimi deyil, həm də milli dövlətçilik ideologiyasının şəriksiz müəllifi kimi qəbul edir. Çünki Heydər Əliyev siyasi kursundan kənarda Azərbaycan dövlətçiliyi yoxdur və ola da bilməz. Bu da onunla bağlıdır ki, görkəmli dövlət xadiminin ölkəmizə rəhbərlik etdiyi dövrlər xalqımızın Qurtuluş tarixidir.***

Ölkəmizə rəhbərliyinin birinci dövründə ağır iqtisadi, siyasi, mənəvi böhran keçirən Azərbaycanı keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevirən ümummilli lider Heydər Əliyev bununla xalqımızı müstəqilliyə aparan yolun əsasını qoymuşdu. Həmin dövrdə ulu öndərin respublikada böyük uzaqgörənliklə formalaşdırdığı potensial müstəqillik illərində davamlı iqtisadi yüksəliş üçün möhkəm özülə çevrilmişdi. Dahi şəxsiyyət uzaqgörənliklə bildirirdi ki, xalqın iqtisadi azadlığını təmin etmədən, onun tarixinə və milli-mənəvi dəyərlərinə sahib çıxmadan siyasi müstəqilliyə nail olmaq mümkün deyil. Bu baxımdan ulu öndər Heydər Əliyev qısa müddətdə ölkədə milli mədəni-intibahı təmin etməklə bu mütərəqqi prosesi iqtisadiyyatdakı uğurlarla üzvi surətdə əlaqələndirməyə nail olmuşdu.

Bu da tariximizin parlaq bir səhifəsidir ki, ölkəmizin dövlət müstəqilliyini bərpa etməsi də xalqımızın böyük oğlu Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimiz əgər ötən əsrin 70-80-ci illərində Azərbaycanı böyük bəlalardan qurtararaq onu müstəqilliyə hazırlamışdısa, 1990-cı ilin noyabr ayında Naxçıvanda dövlət müstəqilliyinin bərpası istiqamətində tarixi qərarlar qəbul edərək müstəqil dövlətçiliyin əsasını qoymuşdur. Bu da reallıqdır ki, ulu öndərimizin Naxçıvanda yaşayıb fəaliyyət göstərdiyi 1990-1993-cü illər təkcə Naxçıvanda deyil, bütün Azərbaycan üçün mühüm mərhələdir. O dövrdə Naxçıvan Muxtar Respublikasının Ali Məclisi xalqımızın azadlıq məfkurəsinin reallığa çevrilməsi üçün ulu öndərin rəhbərliyi altında tarixi qərarlar qəbul etmişdir. Üçrəngli bayrağımız ilk dəfə ümummilli liderin sədrliyi ilə Naxçıvan parlamentində qaldırılmış, Naxçıvan Muxtar Respublikasının adından “sovet sosialist” sözləri çıxarılmışdır.

Qədim diyarımız Naxçıvanda görkəmli dövlət xadiminin rəhbərliyi ilə ölkə əhəmiyyətli qərarlar qəbul edildiyi bir vaxtda Azərbaycanın digər bölgələrində hərc-mərclik, özbaşınalıq, vətəndaş müharibəsi baş qaldırmışdı. 1990-1993-cü illərdə ölkəmizdə baş verən hadisələr onu göstərdi ki, Azərbaycanın nicatı yalnız ulu öndərin ideyalarındadır. Azərbaycan 1991-ci ildə bərpa olunmuş müstəqilliyini itirmək təhlükəsi ilə üz-üzə idi. Ölkəmizdə anarxiya və xaos hökm sürürdü. Torpaqlarımız işğal olunur, Azərbaycan məhvə sürüklənirdi.

Həmin dövrdə Xalq Cəbhəsi-Müsavat hakimiyyəti ölkəmizi dərin böhrana salmışdı. Azərbaycan xalqı varlığının, ölkənin bütövlüyünün, yenicə qazanılmış müstəqilliyin qorunub saxlanılmasını istəyirdi. Ancaq mövcud hakimiyyət və onun rəhbərləri buna heç cür qadir deyildi. Ölkədə vətəndaş müharibəsi başlamışdı və 1993-cü ilin yazında bu müharibə artıq Bakıya çatmaqda idi. Belə bir vəziyyətdə iqtidarın kobud səhvləri ucbatından 1993-cü il iyunun 4-də Gəncədə qarşıdurma yaşanmış, qardaş qanı tökülmüşdü. Gəncədə baş verən hadisələrə də ilk dəfə iyunun 5-də ulu öndər Heydər Əliyev rəhbərlik etdiyi Naxçıvan Muxtar Respublikasının Ali Məclisi münasibət bildirmişdi.

Ölkəmiz real olaraq parçalanmaq təhlükəsi qarşısında qalmışdı. İqtisadi böhran dərinləşmiş, çörək növbələri ölkənin hər yerində adi hala çevrilmişdi. Artıq Xalq Cəbhəsi-Müsavat liderlərinin boş vədləri xalq tərəfindən qəbul edilmirdi. Bir sözlə, qurtuluş Azərbaycanda qaçılmaz zərurətə çevrilmişdi. Bu qurtuluşu isə yalnız ümummilli liderimiz Heydər Əliyev kimi dahi şəxsiyyət həyata keçirə bilərdi.

1993-cü il iyunun 15-də xalqın təkidli tələbi ilə ümummilli lider Heydər Əliyevin yenidən siyasi hakimiyyətə qayıdışı gerçəkləşməsəydi, müstəqilliyimiz itiriləcək, Azərbaycan siyasi xəritədən silinəcəkdi. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi: ***“Müstəqil Azərbaycan öz nicatını görkəmli siyasətçi Heydər Əliyevin hakimiyyətə ikinci dəfə QAYIDIŞINDA tapdı. Keçdiyimiz zaman məsafəsi xalqın düzgün qərar qəbul etdiyini, saysız-hesabsız problemlər məngənəsində sıxılan ölkəmizin ən ağır və məsul dövründə onu qurtuluş yolu ilə aparmağa qadir olan yeganə şəxsiyyətin məhz Heydər Əliyev olduğunu bir daha sübut etdi. Heydər Əliyevin Naxçıvandan Bakıya, böyük siyasətə QAYIDIŞI şərəfli xilaskar missiyasına – Azərbaycanı Azərbaycana qaytarmaq məramına xidmət edirdi”.***

Məhz bu tarixi qayıdış Azərbaycanın varlığını, müstəqilliyini, dövlətçiliyini qoruyub saxladı, ölkəni parçalanmaqdan, vətəndaş müharibəsindən xilas etdi. Görkəmli dövlət xadiminin hakimiyyətə gəldiyi 1993-cü ilin 15 iyunu tarixə Milli Qurtuluş Günü kimi daxil oldu, Azərbaycan Respublikasının Milli Məclisi 1997-ci il 27 iyun tarixli Qərarı ilə dahi şəxsiyyətin ölkə rəhbərliyinə qayıdışı gününü rəsmi olaraq Azərbaycan xalqının Milli Qurtuluş Günü elan etdi.

Görkəmli dövlət xadimi Heydər Əliyevin Azərbaycana ikinci rəhbərlik dövrü müstəqil dövlət quruculuğu prosesinin hərtərəfli şəkildə və böyük uğurla həyata keçirilməsi ilə səciyyələnir. ***“Azərbaycanın dövlət müstəqilliyi bizim üçün ən əziz, ən qiymətli nailiyyətdir və bu nailiyyəti – dövlət müstəqilliyimizi biz daim qoruyub saxlayacağıq”***, – deyən ümummilli liderimiz bu tarixi nailiyyətin, milli istiqlalımızın qorunub saxlanması və möhkəmləndirilməsi üçün misilsiz işlər gördü. Müdrik rəhbərin uzaqgörən siyasəti nəticəsində ölkədəki özbaşınalıq, anarxiya aradan qaldırıldı, qanunların aliliyinə, hüquqi-demokratik prinsiplərə əsaslanan idarəçilik sistemi yaradıldı, vətəndaş həmrəyliyi bərpa olundu.

Görkəmli dövlət xadiminin tarixi xidmətləri sayəsində Azərbaycan yenidən 1969-cu ildəki inkişaf yoluna qayıtdı, iqtisadi tərəqqiyə geniş rəvac verən qlobal layihələrin gerçəkləşdirilməsinə başlanıldı. Xarici neft şirkətləri ilə “Əsrin müqaviləsi” imzalandı, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin çəkilişi istiqamətində mühüm tədbirlər həyata keçirildi. Ölkəmiz beynəlxalq təşkilatlarda layiqincə təmsil olunmağa başladı, hüquqi-demokratik prinsiplərə əsaslanan Konstitusiya qəbul edildi. Müstəqil Azərbaycanın sosial, siyasi, iqtisadi və mədəni həyatının bütün sahələrində ciddi, hərtərəfli, möhtəşəm yüksəlişin baş verməsi ulu öndər Heydər Əliyevin fəaliyyətinin saysız-hesabsız bəhrələrindəndir. Bir sözlə, 1993-2003-cü illərdə ulu öndər Heydər Əliyev Azərbaycanı Azərbaycana qaytardı, müstəqilliyimizin əsl xilaskarı, hər bir vətəndaşın böyük qayğıkeşi, hamisi, Azərbaycanın qurucusu kimi öz sağlığında xalqın qəlbində heykəlləşdi, özünə əbədi yer tutdu.

Müstəqilliyin yolları ilə inamla irəliləyən Azərbaycanda bu gün ulu öndərin amal və əməllərinə böyük ehtiramla yanaşılır. Ölkəmiz Heydər Əliyev siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə bütün sahələrdə yeni-yeni uğurlar qazanır. Respublikamız böyük addımlarla qarşıya qoyulmuş məqsədlərə doğru inamla irəliləyir. 1993-cü ilin Azərbaycanı ilə müasir dövr Azərbaycanını müqayisə etsək, ölkəmizin böyük inkişaf yolu keçdiyini görərik. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***“O vaxt Azərbaycanda xaos hökm sürürdü. Bu gün Azərbaycanda sabitlikdir. O vaxt Azərbaycanda hərc-mərclik var idi. Bu gün Azərbaycanda sülhdür, əmin-amanlıqdır. O vaxt Azərbaycanın iqtisadiyyatı tənəzzülə uğrayırdı. Bu gün Azərbaycan dünyada ən dinamik inkişaf edən ölkələrdən biridir. O vaxt Azərbaycan vətəndaş müharibəsi ilə üz-üzə qalmışdı. Bu gün Azərbaycanda milli birlik, milli həmrəylik mövcuddur. O vaxt Azərbaycanda total böhran hökm sürürdü. Bu gün dünyanın aparıcı dairələri etiraf edir ki, Azərbaycan ən qüdrətli ölkəyə çevrilməkdədir. Bütün bunları edən, bütün bunları yaradan xalqın dəstəyinə arxalanan xalqımızın ümummilli lideri Heydər Əliyev olmuşdur. Bütün bunlar onun zəhmətidir, onun əməyidir və bu gün biz xalqla birlikdə Azərbaycanı daha da inamla, daha da sürətlə inkişaf etdiririk”.***

Hər birimiz qürur hissi keçiririk ki, bu gün Azərbaycan öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Müstəqil Azərbaycan ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə işıqlı gələcəyə doğru inamla addımlayır. Azərbaycan regionda ən qüdrətli və lider dövlət olmaqla yanaşı, iqtisadi və siyasi göstəricilərinə, ictimai-siyasi sabitliyinə görə inkişaf etmiş dünya dövlətləri ilə bir sırada durur.

Naxçıvan Muxtar Respublikası da Milli Qurtuluşun işığında böyük inkişaf yolu keçib. Son illər rayon mərkəzlərindən ucqar dağ kəndlərinədək hər yerdə aparılan genişmiqyaslı quruculuq işləri qədim Naxçıvanın hüsnünü daha da gözəlləşdirib. Həyata keçirilən iqtisadi islahatlar qısa tarixi dövr ərzində muxtar respublikada makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib və əhalinin həyat səviyyəsini əhəmiyyətli dərəcədə yaxşılaşdırıb. Naxçıvan Muxtar Respublikası müstəqil Azərbaycanın yenitipli məktəblərə, səhiyyə ocaqlarına, yeni texnologiya ilə təchiz olunmuş işlək sənaye müəssisələrinə, hər qarış torpağı əkilib-becərilən kənd təsərrüfatına malik inkişaf etmiş qabaqcıl regionuna çevrilib.

Bu tədbirlər ölkəmizdə Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyinin təntənə ilə qeyd olunduğu bir dövrdə daha geniş şəkildə həyata keçirilir. Qurtuluşdan başlanan belə sürətli inkişaf yolu doğma Naxçıvanımızı müasirliyə qovuşdurub. Bunun ifadəsidir ki, Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı və ölkəmizin Gənclər Paytaxtı elan edilib. Bu ilin may ayının 16-da Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev Naxçıvan Muxtar Respublikasına səfəri zamanı günü-gündən cavanlaşan bu qədim yurd yerinin inkişafına yüksək dəyər verərək dedi: ***“Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Onun problemlərinin, qayğılarının, bütün sosial məsələlərin həlli üçün bizdə çox güclü iradə, imkanlar var və görülən işlər bizim siyasətimizi əks etdirir. ...Biz bu siyasətin gözəl nəticələrini ölkəmizin hər yerində görürük, o cümlədən Naxçıvan Muxtar Respublikasında. Bir daha demək istəyirəm ki, burada aparılan işlər çox yüksək qiymətə layiqdir, çox böyük zəhmət, çox böyük məhəbbət tələb edir. Görürəm ki, bütün işlər böyük məhəbbətlə, böyük zövqlə görülür ki, insanlar üçün yaxşı şərait yaradılsın, Naxçıvan Muxtar Respublikası bundan sonra da uğurla inkişaf etsin”.***

Müasir Azərbaycan və onun Naxçıvan Muxtar Respublikası bu gün əldə etdiyi bütün uğurlara görə ulu öndərimizin 1993-cü ildə ali hakimiyyətə qayıdışına, Milli Qurtuluş Gününə borcludur. Milli Qurtuluş Gününün tarixi əhəmiyyətindən danışan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov demişdir: ***“Milli Qurtuluş Günü Azərbaycan xalqı üçün, bizim hamımız üçün müqəddəsdir. Ona görə ki, ötən əsrin 90-cı illərində başımızın üstünü almış təhlükənin sovuşmasına, milli dövlətçiliyimizin xilasına və bu gün müstəqil Azərbaycanda sabitlik, əmin-amanlıq şəraitində yaşamağımıza görə Milli Qurtuluş Gününə borcluyuq. Bu bayram bizim üçün bir də ona görə müqəddəsdir ki, o, ulu öndər Heydər Əliyevin adı, siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Ulu öndərin 1969-cu ildə ölkəmizdə birinci dəfə hakimiyyətə gəlməsi Azərbaycanın dirçəliş və çiçəklənmə dövrü kimi səciyyələnirsə, 1993-cü ildə xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə qayıdışı Milli Qurtuluş tariximizin yazılması ilə əlamətdardır. Milli Qurtuluş Günü Azərbaycanın dövlətçilik tarixində mühüm mərhələ təşkil edir”.***

Azərbaycanın güclü, qüdrətli dövlətə çevrilməsi, regionların sürətlə müasirləşməsi, xalqın rifah halının günbəgün yaxşılaşdırılması Milli Qurtuluş Gününün bəhrələridir. Odur ki, qədirbilən xalqımız hər zaman Qurtuluş Gününü əziz tutur, bu günü böyük sevinc və fərəh hissi ilə qeyd edir. Çünki ulu öndərimiz Heydər Əliyevin xilaskarlıq missiyası nəticəsində Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsindən qurtulmuş, Milli Qurtuluş yüksək intibaha açılan qapı kimi tariximizdə yeni bir səhifə yazmışdır. Bu səhifə isə bu gün olduğu kimi, gələcəkdə də müstəqil Azərbaycanın əsas inkişaf modeli olacaqdır.

**“Şərq qapısı”**

# George Leuka: “Naxçıvanda mükəmməl infrastruktur yaradılıb”

***İyunun 13-14-də Moldova Respublikasının Azərbaycandakı fövqəladə və səlahiyyətli səfiri George Leuka Naxçıvan Muxtar Respublikasında səfərdə olub.***

Səfir əvvəlcə ulu öndər Heydər Əliyevin Naxçıvan şəhərinin baş meydanında əzəmətlə ucalan abidəsi önünə gül dəstəsi qoyub və Heydər Əliyev Muzeyini ziyarət edib.

Naxçıvan Biznes Mərkəzinə gələn qonağa muxtar respublikanın iqtisadi sahədə əldə etdiyi nailiyyətlər barədə məlumat verilib. Bildirilib ki, burada 94 müəssisənin 192 növdə və 1258 çeşiddə məhsulu, 37 ailə təsərrüfatında istehsal olunan 17 növdə 112 çeşiddə məhsul, sənətkarlar tərəfindən hazırlanan əl işləri, rəsm əsərləri, xalçalar və



Naxçıvan Muxtar Respublikasının istehsal müəssisələrinin xəritəsi nümayiş etdirilir.

Sonra qonaq Duzdağ Fizioterapiya Mərkəzinə gəlib. Burada ona məlumat verilib ki, Duzdağ Fizioterapiya Mərkəzinin digər duz şaxtalarından üstünlüyü ondadır ki, şaxta horizontal yerləşdiyindən xəstələr yeraltı şöbəyə tez adaptasiya olunurlar.

Səfir George Leuka “Şərq qapısı” qəzetinə müsahibəsində səfərinin məqsədi və Naxçıvan təəssüratları barədə danışıb. Diplomat deyib: – Muxtar respublikaya ilk dəfədir ki, səfər edirəm. Səfərimin məqsədi Naxçıvanda keçiriləcək 6-cı “Caspian Energy Forum Nakhchivan – 2018”də iştirak etməkdir. Mən buraya bir gün əvvəl gələrək bir neçə yüksək səviyyəli görüşlər keçirdim və Naxçıvanın iqtisadi potensialı haqqında ətraflı məlumat əldə etdim. Bu görüşlərdə ikitərəfli əməkdaşlığı inkişaf etdirmək barədə müzakirələr apardıq. Moldova Respublikası ilə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında iqtisadi, mədəni və digər sahələrdə ikitərəfli əlaqələrin qurulması və inkişaf etdirilməsi üçün əlimdən gələni əsirgəməyəcəyəm.

“Muxtar respublikada olarkən sənaye, kənd təsərrüfatı və özəl sektorun sürətlə inkişaf etdiyinin şahidi oldum”, – deyən George Leuka vurğulayıb: “Muxtar respublika çox gözəl təbiətə malikdir. Naxçıvanda mükəmməl infrastruktur yaradılıb.”

**Tural AĞAYEV**

## Naxçıvanda 6-cı Beynəlxalq “Caspian Energy Forum Nakhchivan – 2018” keçirilib

*İyunun 14-də Naxçıvan Biznes Mərkəzində 6-cı Beynəlxalq “Caspian Energy Forum Nakhchivan – 2018” keçirilib.*

Forum iştirakçıları əvvəlcə Naxçıvan şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət etmiş, daha sonra Biznes Mərkəzi ilə tanış olmuşlar.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının İqtisadiyyat şöbəsinin müdiri Rafiq Novruzov Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun adından forum iştirakçılarını salamlamış və forumun fəaliyyətinə uğurlar arzulamışdır.





Bildirilib ki, beynəlxalq forum ölkəmiz üçün çox əlamətdar bir tarixdə – Milli Qurtuluş Günü ərəfəsində keçirilir. Düz 25 il bundan əvvəl Azərbaycan xalqının təkidli tələbi ilə ümummilli lider Heydər Əliyev ölkəmizdə ikinci dəfə siyasi hakimiyyətə qayıtdı. Bu qayıdış müstəqil Azərbaycanı məhv olmaq, parçalanmaq təhlükəsindən xilas etdi. Məhz həmin dövrdən başlayaraq ictimai-siyasi, sosial-iqtisadi həyatın bütün sahələrində tərəqqinin əsasları qoyuldu. Ulu öndərin müəllifi olduğu siyasətin uğurla davam etdirilməsinin nəticəsidir ki, hazırda ölkəmizdə geniş sahibkarlar təbəqəsi formalaşmış, sosial-iqtisadi inkişafda özəl bölmənin rolu daha da artmışdır. Ölkəmizin ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası da dövlət başçısının göstərdiyi diqqət və qayğıdan bəhrələnərək yeni bir mərhələyə – dinamik və davamlı inkişaf mərhələsinə qədəm qoymuşdur. Bu inkişafın nəticəsidir ki, Naxçıvan Muxtar Respublikası ölkə başçısının rəhbəri olduğu “Caspian European Club”un 2017-ci il üçün 18 parametr üzrə tərtib etdiyi investisiya reytinqinin lideri olmuşdur. Muxtar respublikamız bu uğura ölkə başçısının göstərdiyi böyük diqqət və qayğı, ümummilli liderin ideyalarına sədaqət və onun arzularının gerçəkləşməsi yolunda Ali Məclis Sədrinin gərgin zəhməti sayəsində nail olmuşdur. 28 ilə yaxındır ki, blokada şəraitində yaşamasına baxmayaraq, muxtar respublikada ictimai-siyasi sabitlik və dayanıqlı inkişaf təmin edilmiş, enerji və ərzaq təhlükəsizliyinə nail olunmuşdur.

Diqqətə çatdırılıb ki, bu gün şəhər və rayon mərkəzlərindən ən ucqar dağ və sərhəd kəndlərinə qədər bütün yaşayış məskənləri fasiləsiz olaraq elektrik enerjisi, təbii qaz, dayanıqlı rabitə və internet xidməti ilə təchiz olunur. Sahibkarlığın inkişafı üçün əlverişli şəraitin yaradılması iqtisadiyyatın çoxşaxəli inkişafına təkan vermişdir. Yeni emal müəssisələrinin fəaliyyətə başlaması, kənd təsərrüfatı sahəsində qazanılmış uğurlar daxili tələbatı ödəməklə yanaşı, ixrac üçün də geniş imkanlar açmışdır. Yeni iş yerlərinin yaradılması əhali gəlirlərinin artmasına, sosial rifah halının daha da yaxşılaşmasına, məskunlaşma səviyyəsinin yüksəlməsinə imkan vermişdir. Muxtar respublikada inkişaf və tərəqqi dönməz xarakter alıb və ildən-ilə yüksələn xətlə davam edir. Bunu cari ilin ötən beş ayının makroiqtisadi nəticələri də təsdiq edir. Belə ki, iqtisadi inkişafın xarakterik göstəricisi sayılan ümumi daxili məhsul istehsalı 959 milyon 712 min manatı ötüb. Sənayedə 431 milyon 456 min manat, kənd təsərrüfatında 52 milyon 123 min manat həcmində məhsul istehsal edilib, əsas kapitala investisiya qoyuluşlarının həcmi 394 milyon 770 min manat təşkil edib. Qədim diyarın gələcək inkişafında bu gün keçirilən forum da müəyyən pay sahibi olmaq imkanlarına malikdir. Belə ki, bugünkü tədbirdə “Caspian European Club”u təmsil edən bir sıra şirkətlərin nümayəndələri də iştirak edir. Forum çərçivəsində onlar muxtar respublikada fəaliyyət göstərən istehsal müəssisələri ilə yaxından tanış olacaq, ikitərəfli görüşlər keçirəcəklər. Əminik ki, forum yeni əməkdaşlıqların əsasının qoyulmasına səbəb olacaq, muxtar respublika iqtisadiyyatına investisiya qoyuluşlarının artmasına, onun ixrac imkanlarının daha da yaxşılaşmasına yeni töhfələr verəcəkdir.

Forumda “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı, nailiyyətlər və perspektivlər” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikasının iqtisadiyyat naziri Famil Seyidov bildirib ki, həyata keçirilən quruculuq tədbirləri, iqtisadi və sosial sahədə əldə olunan nailiyyətlər Naxçıvan Muxtar Respublikasını Azərbaycanın ən qabaqcıl, inkişaf etmiş bölgəsinə çevirib. Muxtar respublika iqtisadiyyatının əsas sahələrinin, o cümlədən sənayenin, tikintinin, kənd təsərrüfatının, nəqliyyat və rabitənin inkişafı istiqamətində aparılan məqsədyönlü siyasət məhsul istehsalının artımına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə öz müsbət təsirini göstərib, iqtisadi və sosial sahədə makroiqtisadi göstəricilər hər il yüksələn xətlə davam edərək 2017-ci ildə ümumi daxili məhsulun həcmi 2 milyard 701 milyon 663 min manata, onun hər bir nəfərə düşən həcmi isə 5 min 990 manata çatıb.

Vurğulanıb ki, hazırda muxtar respublikada 382 növdə məhsul istehsal olunur, 350 növdə məhsula olan tələbat tamamilə yerli imkanlar hesabına ödənilir. Muxtar respublikanın bank strukturları və kredit təşkilatları tərəfindən iqtisadiyyata kredit qoyuluşunun həcmi 2017-ci ildə 31 milyon 314 min manat təşkil etmiş, ÜDM-də özəl sektorun payı 89 faizə çatmışdır. Famil Seyidov 2017-ci ildə muxtar respublikanın xarici ticarət dövriyyəsinin 459 milyon 889 min ABŞ dollarına çatmasını, xarici ticarətdə 386 milyon 751 min ABŞ dolları həcmində müsbət saldo yaranmasını, 50-dən çox xarici ölkə ilə ticarət əlaqələrinin olduğunu forum iştirakçılarının nəzərinə çatdırıb.

“Caspian European Club”un sədrinin birinci müavini və baş icraçı direktoru Telman Əliyev “Caspian European Club”un Azərbaycan regionlarının inkişafında rolu” mövzusunda çıxış edərək qeyd edib ki, ölkəmizdə investisiya mühitinin yaxşılaşdırılması, sahib olduğumuz karbohidrogen sərvətlərin qeyri-neft sektoruna yönəldilməsi və dövlətimizin uğurla həyata keçirdiyi regional inkişaf strategiyası ölkə başçısı cənab İlham Əliyevin yorulmaz fəaliyyəti sayəsində mümkün olub.

Bildirilib ki, 2017-ci ilin göstəricilərinə əsasən Naxçıvan Muxtar Respublikasının lider olması çox əhəmiyyətli hadisə kimi burada həyata keçirilən iqtisadi və sosial siyasətin uğurlu nəticəsi kimi qiymətləndirilir. Naxçıvanın ixrac potensialının artması, yerli məhsullar istehsal edən yeni müəssisələrin yaradılması onun investisiya cazibədarlığından xəbər verir. O, forumun əhəmiyyətini bir daha vurğulayaraq “Caspian European Club”un gələcəkdə də naxçıvanlı sahibkarlara işgüzar dəstək verəcəyinə əmin olduğunu bildirib.

“Naxçıvan Muxtar Respublikasında sahibkarlıq və sənayenin inkişafı” mövzusunda çıxış edən Naxçıvan Muxtar Respublikası Sahibkarlar Konfederasiyasının İdarə Heyətinin sədri Vüqar Abbasov qeyd edib ki, Naxçıvanda sahibkarlığa dövlət dəstəyi, xüsusən kiçik və orta sahibkarlığın inkişafına güclü təkan verib.

Bildirilib ki, dövlətin sahibkara sahib çıxması muxtar respublikada iqtisadiyyatın dinamik inkişafına, əhalinin həyat şəraitinin yaxşılaşdırılmasına, yeni iş yerlərinin açılmasına töhfəsini vermiş, iqtisadiyyatın çoxşaxəli inkişafını təmin etmişdir. Bu zaman iqtisadiyyatın aparıcı sahəsi olan sənayenin inkişafı, xüsusilə diqqəti cəlb edir. Belə ki, muxtar respublikada sənaye məhsulunun həcmi 2017-ci ildə 967 milyon manata, bu sektorda çalışanların sayı isə 16,2 min nəfərə çatmışdır. Qeyd edilən sahədə inkişaf, əsasən, özəl investisiya qoyuluşları hesabına baş tutmuşdur. Belə ki, hazırda sənaye məhsulu istehsalında özəl bölmənin payı 95,8 faiz təşkil edir. Sənaye sektorunda əsas kapitala yönəldilmiş investisiyalar son on ildə 4,5 dəfə artıb.

“Caspian European Club”un idarə heyətinin üzvü Avni Demirci çıxış edərək Naxçıvan Muxtar Respublikasında investisiya və biznes fəaliyyəti barədə perspektiv planlardan bəhs edib. O bildirib ki, bu sahədə əldə olunmuş nailiyyətlərdə bank sektorunun uğurlu fəaliyyətinin mühüm əhəmiyyəti vardır. O, təmsil etdiyi Türkiyə Ziraat Bankının bu sahədə böyük təcrübəsi olduğunu bildirib.

Daha sonra “Nəqşicahan Holdinq” Şirkətlər Qrupu MMC-nin direktoru Mübariz Vəliyevin “Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı – 2018” turizm üçün yeni perspektivlər”, “Ləzzət Qida Sənaye” MMC-nin direktoru Teymur Rzayevin “İxrac potensialı, perspektiv bazarlar və nailiyyətlər” və “Caspian European Club”un idarə heyətinin üzvü Vüqar Eyvazovun “Naxçıvan Muxtar Respublikasında investisiya və biznes fəaliyyəti barədə perspektiv planlar” mövzularında çıxışları dinlənilib.

Müzakirələrdən sonra 2017-ci ildə Naxçıvan Muxtar Respublikasında əldə olunmuş nailiyyətlərə həsr olunmuş film nümayiş etdirilib.

Günün ikinci yarısında forum iştirakçıları Naxçıvan şəhərindəki tarixi abidələrlə tanış olub, istehsal və xidmət sahələrindəki iş prosesləri ilə maraqlanıblar.

**“Şərq qapısı”**

## Naxçıvanda İnsan Hüquqları Gününə həsr olunmuş bilik yarışı təşkil edilib



*18 iyun – Azərbaycan Respublikasında İnsan Hüquqları Günü münasibətilə Naxçıvan şəhərindəki Gənclər Mərkəzində muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri arasında bilik yarışı keçirilib.*

Tədbiri Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov açaraq bildirib ki, Azərbaycanın dünyada müstəqil, hüquqi, demokratik dövlət kimi tanınması, ölkədə insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Qeyd olunub ki, görkəmli dövlət xadiminin 1998-ci il 18 iyun tarixli Sərəncamı ilə təsdiq edilmiş “İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı” ölkəmizdə insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyini daha da artırıb. Bu sahəyə qayğının ifadəsi kimi ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli “Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında” Sərəncamına uyğun olaraq hər il iyunun 18-i ölkəmizdə İnsan Hüquqları Günü kimi qeyd olunur və muxtar respublikada da bununla bağlı müxtəlif tədbirlər həyata keçirilir.

Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) Ülkər Bayramova çıxış edərək bildirib ki, muxtar respublikada insan hüquq və azadlıqları daim diqqət mərkəzində saxlanılır, muxtar respublikanın sosial-iqtisadi və demokratik inkişafına uyğun olaraq hüquq institutlarının təkmilləşdirilməsinə, insan hüquqlarının müdafiəsi mexanizminin və ədalət mühakiməsinin səmərəliliyinin artırılmasına, əhalinin keyfiyyətli hüquqi yardımla təmin edilməsinə xüsusi diqqət yetirilir. Ölkə başçısı cənab İlham Əliyevin 2007-ci il 18 iyun tarixli “Azərbaycan Respublikasında İnsan Hüquqları Gününün təsis edilməsi haqqında” Sərəncamı insan hüquqlarına verilən diqqətin bariz təzahürüdür.

Müvəkkil qeyd edib ki, bilik yarışmasının əsas məqsədi insan hüquq və azadlıqlarının əsas mənbəyi olan Azərbaycan Respublikası Konstitusiyasının, Azərbaycanın dövlət və hüquq tarixində mühüm hadisə olan Naxçıvanın muxtariyyətinin tarixi və hüquqi aspektlərinin hərtərəfli və davamlı öyrənilməsinin təşviq edilməsi, gənclərin hüquq sahəsinə olan maraqlarının artırılması, insan hüquq və azadlıqlarının təbliği, gənclərin bu istiqamətdə stimullaşdırılması və istedadlı gənclərin aşkar edilməsindən ibarətdir.

Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun icraçı direktoru Anar Babayev muxtar respublikada gənclərə göstərilən dövlət qayğısından bəhs edərək bildirib ki, son illər gənc nəslin sağlam, bilikli və vətənpərvər ruhda böyüməsi, onların cəmiyyətin bütün sahələrində fəal iştirakının təmin olunması məqsədilə muxtar respublikada Gənclər Mərkəzi, elektron kitabxanalar, yeni məktəb binaları, mədəniyyət evləri, ali təhsil müəssisələri üçün yeni tədris korpusları, olimpiya-idman kompleksləri, idman mərkəzləri və digər obyektlər tikilərək gənclərin istifadəsinə verilib.

İştirakçılar yarışın şərtləri barədə ətraflı məlumatlandırıldıqdan sonra bilik yarışmasına start verilib.

Yarışda Naxçıvan Dövlət və “Naxçıvan” universitetlərinin, Naxçıvan Müəllimlər İnstitutunun, həmçinin Naxçıvan Dövlət Texniki, Naxçıvan Tibb və Naxçıvan Musiqi kolleclərinin tələbələri iştirak ediblər. İki turdan ibarət bilik yarışında tələbələr komanda şəklində Azərbaycan Respublikası və Naxçıvan Muxtar Respublikası konstitusiyalarına, həmçinin muxtariyyətin tarixi və hüquqi aspektlərinə dair suallar üzrə biliklərini sınayıblar.

İki saata yaxın davam edən bilik yarışında ali təhsil müəssisələri tələbələri arasında “Naxçıvan” Universitetinin “Aran” komandası birinci, Naxçıvan Müəllimlər İnstitutunun “Mübariz” komandası ikinci, Naxçıvan Dövlət Universitetinin “Buta” komandası isə üçüncü yerə layiq görülüblər.

Orta ixtisas təhsili müəssisələri tələbələri arasında isə Naxçıvan Dövlət Texniki Kollecinin “Zirvə” komandası birinci, Naxçıvan Tibb Kollecinin “Şəfa” komandası ikinci, Naxçıvan Musiqi Kollecinin “Melodiya” komandası üçüncü yeri tutublar.

Sonda qalib gəlmiş və fərqlənən komandalar Naxçıvan Muxtar Respublikasının İnsan Hüquqları üzrə Müvəkkilinin fəxri fərmanları və Naxçıvan Muxtar Respublikasının Gənclər Fondunun diplomları ilə təltif olunublar.

**“Şərq qapısı”**

# Ramazan bayramı birlik və bərabərliyin, xeyirxahlıq və şəfqətin rəmzidir

*“On bir ayın sultanı” da adlandırılan Ramazan ayında müsəlmanlar Uca Allah və din qarşısında vicdani borclarını daha dolğun ödəmək fürsəti əldə edir, mənəvi zənginliyin və əxlaqi kamilliyin nəfs üzərində qələbə sevincini yaşayırlar. Bu müqəddəs ay Allahı dərk etmək, ruhən təmizlənmək və Ulu Yaradana yaxınlaşmaq ayıdır. Müqəddəs kitabımız “Qurani-Kərim”in nazil olunduğu Ramazan ayı insanlar arasında birliyin, bərabərliyin, xeyirxahlıq və şəfqətin, ilahi hikmətə bağlılığın təntənəsini nümayiş etdirir. Ulu öndərimiz Heydər Əliyev deyirdi:* ***“Ramazan ayı cəmiyyətimizdə həmrəyliyin, dini-mənəvi birliyin möhkəmləndirilməsi işinə xidmət edən, hər bir müsəlmanın, adət-ənənələrimizə riayət edən hər bir insanın qəlbində olan bayramdır. Bizim ənənələrimiz, mənəvi, milli, dini dəyərlərimiz ölməzdir və bundan sonra da yaşayacaqdır”.***

Müsəlman aləminin böyük bayramlarından biri olan Ramazan bayramı hicrətin ikinci ilindən etibarən qeyd olunmaqdadır. Bu bayram hicri-qəməri təqviminin doqquzuncu – Ramazan ayının ardınca şəvval ayının ilk üç günü boyunca qeyd olunur. Müsəlmanlar oruc ibadətlərini bitirdikdən sonra bir yerə yığılır, bayram namazı qılırlar. Bayramın fəzilətlərindən biri müsəlmanların bir-birini ziyarət etməsi, qohum-əqrəbalarla görüşməsi, əgər arada inciklik varsa, bu incikliyin aradan qaldırılmasıdır.

Bayram günləri oruc tutmaq günahdır. Bayram namazı oruc halında qılınmaz. Müsəlman bayram namazı qılmazdan öncə mütləq yemək yeməlidir.

Ramazan bayramı maddi dünyanın deyil, mənəvi aləmin təntənəsidir. Bütün fəsillərin, ayların ruhunu və onlardan süzülüb gələn mənaları bizə təqdim edən Ramazan bayramını bu il də böyük sevinclə qarşılayırıq. Bayram günü birinci olaraq valideynlərimizi təbrik etməli, qulluqlarında durmaqla onlara sevinc yaşatmağa çalışmalıyıq. Allah-Taala “Qurani-Kərim”də valideynlərə hörmət etməyin vacibliyini buyurub. Xüsusilə bayram günlərində ailə üzvlərini sevindirmək, onlara qarşı səmimi məhəbbət nümayiş etdirmək bu bayramın şərtlərindəndir.

Müqəddəs Ramazan bayramı hər il dünya müsəlmanları tərəfindən böyük təntənə ilə qeyd olunur. Bu bayram bütün İslam aləminin həmrəylik və qardaşlıq timsalına çevrilib. Bayram günlərində insanlar arasında Allaha inam, Vətənə, torpağa, xalqa bağlılıq hissindən doğan bir nikbinlik əhval-ruhiyyəsi yaşanır.

Tarixboyu öz mənəvi dəyərlərini uca tutmuş Azərbaycan xalqı da dünya müsəlmanlarının mübarək Ramazan bayramını könül xoşluğu ilə qeyd edir. Bu bayram günlərində respublikamızın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş qəhrəman övladlarımızın unudulmaz xatirəsi ehtiramla yad edilir, şəhidlərimizin ruhuna dualar oxunur. Ramazan bayramı, həmçinin insanların Vətən, torpaq, dövlətçilik kimi müqəddəs amallar ətrafında daha sıx birləşməsinə xidmət edir.

Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə Ramazan bayramı dövlət səviyyəsində qeyd olunmağa başlanılıb. Ulu öndərimiz xalqımıza belə bir bayramı böyük coşqu və sevinclə qeyd etmək kimi müqəddəs bir ənənəni miras qoyub. Ümummilli liderimizin bu istiqamətdə müəyyənləşdirdiyi siyasət indi ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bunun



nəticəsidir ki, Azərbaycanda dindövlət münasibətləri çox yüksək səviyyədədir.

Bu gün Azərbaycan dünyanın ən tolerant ölkəsidir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev ölkəmizdə mənəvi dəyərlərin qorunmasına xüsusi diqqət göstərildiyini bildirərək deyib: ***“Azərbaycan müasir dövlətdir, dünyəvi dövlətdir. Eyni zamanda öz milli və dini ənənələrinə sadiq olan dövlətdir. İslam dəyərləri bizim milli-mənəvi dəyərlərimizin tərkib hissəsidir və müqəddəs Ramazan ayı bütün dövrlərdə Azərbaycan xalqının qəlbində yaşamışdır. Azərbaycan o ölkədir ki, burada bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayır və bu, bizim böyük sərvətimizdir”.***

Muxtar respublikamızda da milli-mənəvi dəyərlərimizin qorunmasına və təbliğinə xüsusi diqqət yetirilir, dini bayramlarımız yüksək səviyyədə qeyd edilir, ziyarətgahlarımız, məscidlərimiz təmir və ya bərpa olunur. Hər il Ramazan ayının fəzilətlərinin həyata keçirilməsi, iftar süfrələrinin açılması və bu bayramın həmrəyliklə qeyd edilməsi ənənə halını alıb. Mayın 29-da Naxçıvan şəhərində ümummilli lider Heydər Əliyevin anadan olmasının 95-ci ildönümü münasibətilə iftar süfrəsi açılmışdır. İftar mərasimində çıxış edən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov milli-mənəvi dəyərlərimizə, tarixi ənənələrimizə və dini mərasimlərimizə xüsusi ehtiramla yanaşan ümummilli liderimiz Heydər Əliyevin ***“Xalqımızın dini-mənəvi dəyərləri, dinimizin adət-ənənələri bizim milli sərvətimizdir”*** fikrini xatırladaraq demişdir: ***“Ən ali dini dəyərlərimizdən biri də mübarək Ramazan ayıdır. İlahi hikmətlər xəzinəsi olan “Qurani-Kərim”in nazil olduğu bu müqəddəs ay insanları əmin-amanlığa, bərabərliyə və savab işlərə dəvət edir. Dini dəyərlərə göstərilən ehtiramın nəticəsidir ki, muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilmişdir”.***

Ali Məclisin Sədri müqəddəs dəyərlərimizin daim uca tutulması diləyi ilə müqəddəs Ramazan ayında duaların və niyyətlərin qəbul olunmasını arzulamışdır.

Qeyd edək ki, bayramdan öncə imkanı olan hər bir müsəlmanın fitrə verməsi vacibdir. “Fitr” oruclu olmama halını ifadə edir. Ramazan ayı boyunca oructutan müsəlmanlar bu ay sona çatıb şəvval ayı girincə oruca son verirlər və bayram edirlər.

Fitr sədəqəsinin miqdarı bir nəfər üçün 5-10 manatdır. Fitrə zəkatı maddi vəziyyəti çətin olan adamlara (fəqirlərə) verilməlidir. Hər kəs öz kasıb qohumuna, ya qonşusuna fitrə zəkatı versə, daha yaxşıdır. Zəkatın hansı şəxslərə verilməsi ilə əlaqədar “Qurani-Kərim”in “Tövbə” surəsinin 60-cı ayəsində bildirilir: *“Sədəqələr (zəkatlar) Allah tərəfindən müəyyən edilmiş bir fərz (vacib əməl) olaraq ancaq yoxsullara, (ehtiyacı olan, lakin utandığından əl açıb dilənməyən) miskinlərə, zəkatı yığıb paylayanlara, ürəkləri (müsəlmanlığa) isnişib bağlanmaqda olanlara (iman gətirib hələ kamil mömin olmayanlara), azad ediləcək kölələrə (və ya boynuna kəffarə düşüb verə bilməyənlərə), həmçinin (borcu ödəməyə imkanı olmayan) borclulara, Allah yolunda cihad edənlərə və yolçulara (pulu qurtardığı üçün yolda qalan, vətəninə qayıda bilməyən müsafirlərə) məxsusdur. Allah (hər şeyi) biləndir, hikmət sahibidir”.*

Qəlbləri ilahi hikmətlə nurlandıran Ramazan bayramı insanları sülhə, əmin-amanlığa və həmrəyliyə dəvət edir, cəmiyyətimizdə nəcib əməllərin və savab işlərin təntənəsinə yol açır. Allah orucunuzu və dualarınızı qəbul etsin! Ramazan bayramınız mübarək olsun!

**Vüqar BABAYEV**
***Naxçıvan Muxtar Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Agentliyinin direktoru***

# Muxtar respublikanın ümumtəhsil məktəblərində “Son zəng” olub



***Dünən ölkəmizin hər yerində olduğu kimi, Naxçıvan Muxtar Respublikasının da tam orta təhsil məktəblərində XI sinif şagirdlərinin “Son zəng” tədbirləri keçirilib.***

Məlumat üçün bildirək ki, bu tədris ilində muxtar respublikanın adıçəkilən təhsil müəssisələrindən 2803 nəfər məzun olub.

Naxçıvan şəhərindəki Heydər Əliyev adına tam orta məktəbdə keçirilən tədbirdə çıxış edən Naxçıvan Muxtar Respublikasının təhsil naziri Məmməd Qəribov muxtar respublikada təhsilin inkişafına göstərilən qayğıdan və bu sahədə qazanılan nailiyyətlərdən danışıb, sonda məzunları təbrik edib və onlara ali məktəblərə qəbul imtahanlarının II mərhələsində uğurlar arzulayıb.

Digər məktəblərdə keçirilən tədbirlərdə də məzunlara müstəqil həyatda xoş arzular ifadə olunub, onlara dövlətçiliyimizin, müstəqilliyimizin qorunmasında, inkişafında fəal həyat mövqeyi nümayiş etdirmək tövsiyə edilib. Məzunlar bu yolda bütün səy və bacarıqlarını sərf edəcəklərinə söz veriblər.

Tədbirlərdə şeirlər bədii qiraət olunub, mahnılar səsləndirilib.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***

# Cüdo üzrə birincilik keçirilib

İyunun 14-də İslam Hümbətov adına Uşaq-Gənclər İdman Məktəbində Milli Qurtuluş Günü münasibətilə yeniyetmələr (2006-2008-ci illər təvəllüdlü) arasında cüdo üzrə Naxçıvan şəhər birinciliyi keçirilib. Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin rəisi Xəyal Qurbanov tədbiri açıq elan edərək bildirib ki, ümummilli lider Heydər Əliyevin 1993-cü il iyunun 15-də Azərbaycanda hakimiyyətə qayıdışı xalqımızın şanlı tarixinə Milli Qurtuluş Günü kimi daxil olmuş, ulu öndərimizin tarixi xidmətləri sayəsində Azərbaycanın dövlət müstəqilliyi əbədi, dönməz xarakter almışdır.



Sonra Naxçıvan Muxtar Respublikası Güləş Federasiyasının sədr müavini Faiq İsgəndərov yarışın qaydaları haqqında idmançılara geniş məlumat verib və onlara uğurlar arzulayıb.

Naxçıvan Muxtar Respublikası Güləş Federasiyası və Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə keçirilən yarışda 10 çəki dərəcəsi üzrə 50 idmançı mübarizə aparıb. Birincilikdə oğlan idmançılar ilə yanaşı, qız idmançılar da öz güclərini sınayıblar. Birinciliyin yekununa əsasən Əlislam Səfərov, Rəhim Qaybalıyev, Səid Seyidov, Seymur Hüseynli, Rza Paşayev, Faiq Məmmədli, Əziz Hacıyev, Rauf Cabbarov və Sadiq Həsənzadə müvafiq olaraq 23, 26, 29, 32, 35, 42, 46, 50 və 50+ kiloqram çəki dərəcələrində, qızlar arasında isə Cənnət Əliyeva 24 kiloqram çəki dərəcəsində I yerə layiq görülüblər. Sonda hər çəki dərəcəsində I, II və III yerləri tutan idmançılar Naxçıvan Şəhər Gənclər və İdman İdarəsinin diplomları ilə təltif olunublar.

***Naxçıvan Muxtar Respublikası Gənclər və İdman Nazirliyinin mətbuat xidməti***

# Batabat Astrofizika Rəsədxanasının layihəsi beynəlxalq qrant müsabiqəsində qalib gəlib

*AMEA Naxçıvan Bölməsinin Batabat Astrofizika Rəsədxanası Azərbaycan Prezidenti yanında Elmin İnkişafı Fondunun və Rusiya Fundamental Tədqiqatlar Fondunun birlikdə keçirdiyi beynəlxalq qrant müsabiqəsinin qalibi olub.*

“Günəş və heliogeofiziki aktivliyin variasiyalarının fizikası, uzunmüddətli proqnozlaşdırılması və biosistemlərə təsiri” adlı qrant layihəsinin yerinə yetirilməsində Batabat Astrofizika Rəsədxanasının əməkdaşları ilə birlikdə Nəsirəddin Tusi adına Şamaxı Astrofizika Rəsədxanasının, Akademik Abdulla Qarayev adına Fiziologiya İnstitutunun və Rusiya Elmlər Akademiyasının Yer maqnetizmi, İonosfera və Radiodalğaların yayılması İnstitutunun alimləri də



iştirak edəcək.

Qeyd edək ki, Batabat Astrofizika Rəsədxanasının rəhbərlik edəcəyi qrant layihəsi 2 il müddətində yerinə yetiriləcək. Layihə çərçivəsində aparılacaq elmi-tədqiqat işlərinin əsas istiqamətləri olan Günəş-Yer əlaqələrinin fizikası həm Günəşdə, həm də yerətrafı fəzada baş verən bəzi fəal hadisələrin biosistemlərə təsiri sahəsində olacaq. Layihədə Günəş və geofiziki fəallığın biosistemlərə ümumi təsirinin nəzəri əsaslarının işlənib hazırlanması ilə yanaşı, bu amillərin bilavasitə Qafqaz regionuna xüsusi təsiri də tədqiq ediləcək. Nəzərdə tutulan işlərin yerinə yetirilməsi ilə alınacaq elmi nəticələr bioloji və ekoloji sistemlərlə bağlı bəzi proseslərin uzunmüddətli proqnozlaşdırılması məsələlərinin həllinə köməklik göstərəcək.

***AMEA Naxçıvan Bölməsinin İnformasiya şöbəsi***

## İtmişdir

Naxçıvan şəhəri, Nizami küçəsi, bina 53A, mənzil 3-də qeydiyyatda olan Yusifov Vəzir Ağca oğlunun adına olan MH-0005185 inventar nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

**ŞƏRQ qapısı**

Baş redaktor:
MEHRİBAN SULTANOVA

Ünvan: *AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 1.*
*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

Qeydiyyat №: 575

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* Əli Cabbarov

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

Tiraj: 1490. Sifariş № 442